# Azərbaycan-Misir əlaqələrini genişləndirmək üçün böyük potensial var

İyunun 21-də Milli Məclisin Azərbaycan-Misir parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Ceyhun Məmmədov Misir Ərəb Respublikasının Azərbaycandakı səfiri Adel İbrahim Ahmed İbrahim ilə görüşüb.

Qonağı salamlayan deputat Milli Məclis rəhbərliyinin parlamentlərarası əməkdaşlığa və parlamentin beynəlxalq fəaliyyətinə böyük diqqət yetirdiyini bildirib.

Milli Məclisin Misirlə parlamentlərarası əlaqələr üzrə işçi qrupu barədə məlumat verən Ceyhun Məmmədov Misir parlamentində də müvafiq qrupun yaradılmasının əhəmiyyətini qeyd edib.

Azərbaycanı və Misiri birləşdirən ortaq dəyərlərdən danışan deputat iki ölkə arasında əlaqələri genişləndirmək üçün böyük potensialın olduğunu deyib, əməkdaşlığın intensivləşdirilməsinin vacibliyindən danışıb.

Ceyhun Məmmədov səfirin Azərbaycanda diplomatik fəaliyyəti müddətində ölkələrimiz arasında dost münasibətlərin inkişafına çalışmasını yüksək dəyərləndirib, bu istiqamətdə gələcəkdə də onun öz səylərini əsirgəməyəcəyinə əminliyini bildirib.

Öz növbəsində, Misirin Azərbaycandakı səfiri Adel İbrahim Ahmed İbrahim ölkəmizdə fəaliyyət göstərməsindən məmnunluğunu ifadə edib. Misir xalqının Azərbaycana və onun xalqına səmimi hisslər bəslədiyini vurğulayıb. İki ölkə arasında mövcud olan parlamentlərarası əlaqələrdən söz açan diplomat bu əlaqələrin gələcək inkişafı üçün əlindən gələni əsirgəməyəcəyini deyib.

Görüş zamanı tərəflər Azərbaycan və Misir arasında ikitərəfli münasibətlərin inkişaf perspektivləri barədə də fikir mübadiləsi aparıblar.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

Azərbaycan.-2021.-22 iyun.-S.2.